

# Azərbaycanın QURTULUŞ salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə 30



# Tarixi dəyişən gün

**Hər bir xalqın tarixində sınaqlarla dolu dövrlər olur. Xalqın gələcəyə doğru inkişaf yolu da bir çox halda həmin dövrlərdə verilən qərarlar, seçilən istiqamətlər əsasında müəyyənləşir. Çünki istənilən keşməkeşli zaman xalq üçün də, fərdlər üçün də bütün problemlərinə rəğmən həm də imkanlar dövrüdür.**

Bu problemlərin həllində, imkanların düzgün dəyərləndirilməsində və güclərin səfərbərliyə alınaraq böyük məqsədlərin reallaşdırılmasında şəxsiyyət amili çox mühüm rol oynayır. Şəxsiyyətlər öz varlıqları, nəcib əməlləri ilə zamanı tarixə çevirirlər. 15 İyun Milli Qurtuluş Günü də böyük şəxsiyyətin, Ulu Öndər Heydər Əliyevin tarixdəki möhtəşəm imzalarındandır. Həmin gün Azərbaycan xalqının həyatında dönüş nöqtəsidir. Milli dövlətçilik tariximizin ən əlamətdar məqamlarındandır. Müstəqil Azərbaycan dövlətinin tarixdəki ən böyük uğurları Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ölkəni bəlalardan xilas etmək üçün hakimiyyətə qayıtdığı bu gündən başlanır.

Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Əsrlərin sınağından keçərək min bir əziyyətlə, amma dönmədən öz məqsədinə doğru addımlayan bir millətin özünün özünə qayıdışı idi. Bu, dilimizin, milli-mənəvi dəyərlərimizin, unudulmuş, yaddan çıxmış bir çox həqiqətlərin, eyni zamanda bizə öz real gücümüzü, mənəvi bütövlüyümüzü dərk etməyimizin qayıdışı idi və bununla ölkəmiz özünün müstəqillik tarixinin daha şərəfli, daha əzəmətli bir mərhələsinə qədəm qoydu. Azərbaycanı regionun ən inkişaf etmiş dövlətinə çevirə bildi.

## Bir istefadan sonra başlanan faciələrimiz

Azərbaycan xalqı ötən əsrin sonlarına doğru güclü təzyiqlərə məruz qaldı, böyük sınaqlar yaşadı. Bu dövrdə dövlət müstəqilliyimizin bərpasına nail olsaq da, belə bir nailiyyət bizə asanlıqla başa gəlmədi. Sıralarımızdan minlərlə qurban verdik. Xalqımız üçün hər cəhətdən böyük itkilərə gətirən, müstəqil dövlətimizi illərlə geri salan işğalla, müharibə vəziyyəti ilə, sosial-iqtisadi böhranla, çox ağır keşməkeşlərlə üz-üzə qaldıq.

Keçmiş SSRİ-nin dağılması labüd proses idi: indi on illər əvvəllərin reallıqlarına nəzər salanda bir daha əminlik yaranır ki, yol əvvəldən düzgün seçilmədiyindən və sonralar da zamanın çağırışları nəzərə alınmadığından belə nəhəng imperiyanın çöküşü əvvəl-axır baş verəcəkdi. Faciə onda oldu ki, bu prosesin ən həlledici və qanlı-qadalı mərhələsi məhz Azərbaycanda başlandı və xalqımız üçün böyük qurbanlar hesabına başa gəldi. Əsas səbəbsə o kritik anlarda taleyimizin əsl liderin deyil, yaranmış vəziyyəti fürsət bilib irəli çıxan təsadüfi adamların əlində olmasında idi.

Azərbaycan xalqının ötən əsrin 80-ci illərinin sonlarına doğru üzləşdiyi böyük faciələrin məhz Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdən kənarlaşdırılmasından sonra başlanması reallıqdır. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yürütdüyü siyasi xəttin yanlış olduğunu, ortaya atılan avantüraların keçmiş ittifaqda bir araya gəlmiş xalqları və dövlətləri necə böyük faciələrə doğru apardığını müdrikliklə görürdü. Özünəməxsus qətiyyətlə buna etirazını bildirməkdən çəkinmirdi. Bu isə Ümummilli Liderin hakimiyyət olimpindəki bədxahlarında qəzəb yaradır, ona qarşı məkrli planlar qurulurdu. Nəhayət, Ulu Öndər keçmiş imperiya rəhbərliyinə etiraz olaraq 1987-ci ilin oktyabrında tutduğu vəzifələrdən istefa verdi. Bununla da Azərbaycana qarşı mənfur planlarının icrasına başlamaq üçün onillərlə əlverişli fürsət gözləyən, yalnız Heydər Əliyev şəxsiyyətinin gücündən çəkinərək real addımlar atmağa ehtiyat edən ermənilər hərəkətə keçdilər. Ümummilli Liderin istefasından cəmi iki həftə sonra sovet iqtidarındakı himayədarlarının dəstəyi ilə o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırdılar. Bununla da xalqımızın faciəli günləri başlandı.

Keçmişin hadisə və proseslərinin diqqətlə təhlili sübut edir ki, əgər o illərdə Heydər Əliyev ali hakimiyyətdə təmsil olunsaydı, Azərbaycanı təsadüfi kəslər deyil, belə güclü Lider idarə etsəydi, erməni millətçiləri heç zaman öz çirkin əməllərinə əl atmağa cəsarət tapmayacaqdılar.

Digər tərəfdən, hakimiyyət hərisləri milli dövlətçiliyimizin sükanı arxasında güclü, qətiyyətli Liderin - Ulu Öndər Heydər Əliyevin olmasını istəmirdilər. Çünki onun əzəməti, siyasətçi, dövlət xadimi kimi böyük miqyası qarşısında özlərinin nə qədər cılız göründüklərini yaxşı anlayırdılar.

Azərbaycan xalqı 1980-ci illərin sonlarından başlayaraq müstəqillik mübarizəsinə Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərlik dövründə yaratdığı möhkəm təməllərdən güc alaraq başlamışdı. O illərdə azadlıq uğrunda mübarizlərin çoxu Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə cəmiyyətdə görünməkdə olan milli oyanış ruhunun yetişdirdiyi gənclik idi. Həmin tarixi günlərdə xalqın önündə dayanan insanların çoxu Ulu Öndərin sovetlər vaxtı təzyiqlərdən qoruduğu, yaradıcılığına istiqamət verdiyi ziyalılar idi.

## Xaos

O zaman ölkə rəhbərliyində olan qətiyyətsiz simalar əfsuslar ki, yaranmış böhran vəziyyətini idarə edə bilmədilər. Proseslər təhlükəli miqyas aldı. Daha sonra küçə-meydan eyforiyası ilə hakimiyyəti ələ keçirmiş AXC-Müsavat iqtidarının səriştəsizliyi isə daha acınacaqlı vəziyyətə gətirib çıxardı. O vəziyyət həmin günlərə şahid olmuş hər kəsin yaddaşındadır. Hakimiyyətə heç bir idarəçilik təcrübəsi olmayan naşı adamların rəhbərlik etməsi, ölkədəki qanunsuz silahlı dəstələrin başıpozuq əməlləri, xarici siyasətdəki kobud yanlışlar, sosial-iqtisadi şəraiti getdikcə ağırlaşdıran düşünülməmiş qərarlar Azərbaycanı böyük fəlakətlərə sürükləyirdi.

Hakimiyyəti küçə-meydan əhvalında zəbt edənlər gəncliyi qaragüruh gözündə görürdülər. Bu, ən təhlükəli, qorxunc bir istiqamət idi. Təfəkkürdə, psixologiyada dəyişiklik istər-istəməz mənfi meyillərin artmasına yol açırdı. Onların böyüməkdə olan nəsildən əsas gözləntiləri, aşıladıqları əsas "dəyər" məqam gələndə mümkün qədər hündürdən qışqırmaq idi. Xalqın mənəvi istinadgahı olan elm, təhsil, mədəniyyət diqqətdən kənarda qalmışdı. Ədəbi-bədii jurnallar, çoxillik ənənələri ilə seçilən bir çox mətbuat orqanları fəaliyyətini dayandırmışdı. Tələsik və qanunsuz şəkildə bir-birinin ardınca özəl qurumlar yaradılır, dövlət əmlakı talanır, alver ruhu hər yerə sirayət edirdi.

Tarixən çoxmillətli ölkə olan, əsrlərdir ki, müxtəlif xalqların nümayəndələrinin dinc, mehriban şəraitdə yanaşı yaşadıqları Azərbaycanda xarici qüvvələrin təhriki ilə separatizm meyilləri baş qaldırırdı. Siyasi proseslərdə fəal iştirak edən qeyri-qanuni silahlı dəstələrin hakimiyyəti ələ keçirmək üçün bir-biri ilə üz-üzə gəlməsi nəticəsində ölkə artıq vətəndaş müharibəsinin bir addımlığına gəlib çatmışdı. Azərbaycan bir dövlət kimi parçalanıb dünyanın siyasi xəritəsindən silinmək riski ilə üz-üzə idi. Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə respublikada min bir əziyyətlə, böyük fədakarlıqlar hesabına qurub-yaratdıqları sürətlə dağıdılıb talan edilirdi.

Dövlət əmlakı aşkar şəkildə mənimsənilirdi. Ölkənin ehtiyat mənzil fondu AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu qısa müddət ərzində dost-tanış arasında paylanılırdı. Ölkənin hər yerində kriminal ünsürlər at oynadırdılar. Ən dəhşətlisi budur ki, kriminal düşüncəli adamlar həm də yüksək dövlət vəzifələrinə təyin edilirdilər. Hakimiyyət bir növ kriminallaşırdı. Nazirlərin, yüksək dövlət qurumlarına rəhbərlik edən şəxslərin davranışları, bir-birinə münasibəti də kriminal ünsürlərdən qətiyyən fərqlənmirdi. İqtidardan daha böyük pay qoparmaq uğrunda didişmələr getdikcə güclənirdi. Hakimiyyət daxilindəki qruplaşmalar müharibə şəraitində yaşayan ölkənin ən böyük faciələrindən birinə çevrilmişdi. Cəbhə bölgəsindəki rayonlarımız bu qruplaşmaların, onların xalqa xəyanətlərinin qurbanı oldu. Şuşa, Laçın kimi strateji rayonlarımız hakimiyyət davasının nəticəsi kimi düşmənə təhvil verildi. Hakimiyyəti zəbt etmiş qüvvələrin xəyanəti nəticəsində 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşdü.

## Dönüş anı

Əslində, tarix AXC-Müsavat cütlüyünə xalqa xidmət etmək, Azərbaycanın inkişafı üçün çalışacaqlarını dildə vəd etdikləri kimi, əməldə də göstərmək üçün şans vermişdi. Əgər onlar müstəqilliyin ilk dövrlərində cəmiyyətin sağlam düşüncəyə malik insanlarının sosial çağırışlarını nəzərə alsaydılar, hakimiyyət hərisliklərini elə ilk günlərdən ortaya qoymasaydılar, respublika rəhbərliyinə böyük siyasi təcrübəyə, idarəçilik məharətinə malik Heydər Əliyevi dəvət etsəydilər, onda yaşadığımız faciələrin çoxu baş verməyəcəkdi. Müstəqil Azərbaycan dövlətinin keçdiyi inkişaf yolu daha asan başa gələcək və milli dövlətçilik nailiyyətlərimiz indikindən də böyük olacaqdı. Çünki o kritik dövrlərdə yol verilmiş ciddi səhvlərin nəticələrinin aradan qaldırılmasına, yaralarımızın sarınmasına onillərimiz getdi. Yaranmış ağır vəziyyəti yalnız Heydər Əliyevin fəhmi, müdrikliyi hesabına aradan qaldırmaq mümkün oldu.

Azərbaycan xalqı 1993-cü ilin iyununda öz tarixi qərarını verdi. Vəziyyətdən çıxış yolu kimi Ulu Öndər Heydər Əliyevi hakimiyyət rəhbərliyinə çağırdı. Heydər Əliyev xalqın səsinə səs verərək ali hakimiyyətə qayıtmaqla, əslində, AXC-Müsavat cütlüyünün yüksək vəzifə sahiblərinin də həyatını xilas etdi. Çünki dövlətçilik anlayışı barədə elementar təsəvvürü belə olmayan, əlindəki hərbi birləşmələrdən şəxsi məqsədlərlə istifadə edib ovaxtkı hakimiyyət rəhbərləri ilə haqq-hesab çəkmək, onlardan qisas almaq məqsədilə istifadə etmək istəyənlər onları sağ qoymayacaqdılar. Ona görə AXC-Müsavat cütlüyünün sonda Heydər Əliyevdən imdad diləməsində bu amilin də rolu vardı.

Heydər Əliyev 1993-cü ilin 9 iyununda Naxçıvandan Bakıya qayıdaraq 6 gün sonra - 1993-cü ilin 15 iyununda Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməklə vətənini xilas etdi. Böyük rəhbər həyatını təhlükə altında qoyub vətəndaş müharibəsinin qarşısını aldı. Gəncədə baş vermiş qiyamı yatırtdı. Ölkəni xaos, anarxiya məngənəsindən çıxardı. Azərbaycan insanlarında gələcəyə böyük ümidlər yaratdı. Dövlət müstəqilliyinə, demokratiyaya, azad bazar iqtisadiyyatına yaranmış inamsızlığı aradan götürdü. Müstəqilliyini yenicə qazanmış Azərbaycan Heydər Əliyevin xilaskarlıq missiyası, müdrik qərarları sayəsində rəvan inkişaf yoluna çıxdı və gələcək uğurlarına doğru ilk böyük addımlarını atdı.

Beləliklə, 15 İyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Sonralar millət vəkilləri 15 İyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş Günü kimi salınması təklifi ilə çıxış etdilər və Milli Məclis bu təklifi dəstəklədi. Həmin vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş Günü kimi böyük bayram ovqatı ilə qeyd edilir.

Ümummilli Lider tarixi qayıdışı ilə amallarında yaşatdığı Yeni Azərbaycanın qurulmasına nail oldu. Beləliklə, ölkə ziyalılarının, cəmiyyətin sağlam düşüncəli insanlarının Ulu Öndərin ideyaları ətrafında formalaşdırdıqları partiya öz adını doğrultdu.

Adətən siyasi partiyalar yaranır, təşkilatlanır və öz liderlərini hakimiyyətə gətirirlər. Heydər Əliyev isə o qədər miqyaslı siyasətçi, parlaq lider idi ki, xalqın arzusu və tələbi ilə özü hakimiyyətə gəlib, partiyasını da hakimiyyətə gətirdi. Yeni Azərbaycan Partiyasında təmsil olunan peşəkarlar, milli dövlətçilik dəyərlərimizə bağlı təcrübəli insanlar Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən demokratik, hüquqi dövlət quruculuğu proseslərinin uğurla aparılması, öz məqsədinə çatması üçün kadr bazası rolunu oynadılar.

## Qurtuluşdan inkişafa

1993-cü ildə xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş Ümummilli Lider andiçmə mərasimindəki nitqində demişdi: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Ulu Öndər bu andına hər zaman sadiq qaldı. Azərbaycanın dövlət müstəqilliyinin memarı oldu. Ölkəmizdə qanunun aliliyini, demokratik inkişaf prinsiplərini təmin etdi. Hüquqi dövlət qurdu, vətəndaş cəmiyyəti formalaşdırdı, insanlarımızda dövlətçilik düşüncəsi, vətəndaş məsuliyyəti aşıladı. Azərbaycanın inkişafı üçün həlledici əhəmiyyət daşıyan azad bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olmasına kömək göstərdi. Milli birliyə nail oldu. Azərbaycanı müstəqil dövlət kimi, beynəlxalq siyasi-iqtisadi münasibətlərin bərabərhüquqlu iştirakçısı statusunda dünyaya çıxardı. Ölkəmizin beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirdi. İrəli sürdüyü qlobal təşəbbüslərlə ölkəmizi regionun əsas söz sahibinə çevirdi.

Heydət Əliyev güclü ordunun əsasını qoydu. Azərbaycan gəncliyini sağlam düşüncə işığında bir araya gətirdi, onların gələcəyini qorudu. Biliyi, savadı, yüksək bacarıqları əsl şəxsiyyət meyarına çevirdi. Hər kəsə bərabər imkanlar mühiti yaratdı. Bütün bunları edərkən Heydər Əliyev hər zaman xalqın ona - öz liderinə olan möhkəm, sarsılmaz inam və dəstəyindən güc aldı. 1994-cü ilin 20 sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" mahiyyət etibarilə Azərbaycanın böyük uğurlarının rəhninə çevrildi. Bununla Heydər Əliyev regionda qlobal iqtisadi əməkdaşlıqların əsasını qoydu. Bölgənin tarixində misilsiz bir səhifə açdı. Sonrakı tarixi hadisə və proseslərin təhlili Ulu Öndərin o dövrdəki belə qətiyyətli addımlarının Azərbaycanın keçmişi, bu günü və gələcəyi üçün nə qədər böyük əhəmiyyət daşıdığını göstərir.

Ölkə rəhbərinin yüksək siyasi səriştəsi sayəsində uğurlu xarici siyasət kursu müəyyənləşdirən Azərbaycan qısa zamanda beynəlxalq arenada böyük nüfuz və etimad qazandı. Qurtuluş Günündən keçən illər ərzində respublikamız çoxlarının xəyal edə bilməyəcəyi dərəcədə inkişaf edib, dünya birliyinin bir parçasına çevrildi. 15 İyun Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində sadəcə təqvimin bir günü, yaxud əlamətdar bir tarix deyil. Bu bir dövlətçilik fəlsəfəsidir. 1993-cü ilin 15 iyunundan bəri əldə edilmiş bütün tarixi nailiyyətlərdə bu gün əks olunub. Bütün nailiyyətləri Qurtuluş Günü öz mahiyyətində birləşdirir. Heydər Əliyev şəxsiyyətinin qüdrəti, əzəməti, Vətən sevgisi Azərbaycanı ucaltdı. Azərbaycanın 1993-2003-cü illərdə keçdiyi sürətli inkişaf yolu ilə ölkəmizin bugünkü reallıqlarının möhkəm təməlini formalaşdırdı.

Prezident İlham Əliyevin bu gün tarixinin ən qüdrətli mərhələsinə yetirdiyi Azərbaycan Ümummilli Liderin arzularındakı Azərbaycandır. Müzəffər Ali Baş Komandanın qətiyyəti, ordumuzun gücü sayəsində ölkəmizin öz ərazi bütövlüyünü bərpa etməsi Ulu Öndərin ən böyük arzusunun reallaşmasıdır. Bu gün regionun lider dövləti kimi getdikcə inkişaf edən, sosial-iqtisadi qüdrətini artıran, modernləşən, beynəlxalq aləmdə sözü, mövqeyi qəbul olunan Azərbaycan dövləti bu uğurlara Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu sayəsində nail ola bildi. Azərbaycan Prezidentinin bu kursa sadiqliyi nəticəsində ölkəmiz tarixinin ən böyük nailiyyətlərinə gəlib çatdı.

Bu gün azad yurdlarımıza həyat qayıdır, Şuşada, işğaldan azad olunmuş yurdlarımızda bayram tonqalları alovlanır, Böyük qayıdış reallaşır, insanlarımız illərin həsrətindən sonra doğma torpaqlara qovuşur. Azərbaycan xalqı Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin verdiyi böyük əminlik, güvən duyğusu ilə gələcəyə doğru irəliləyir, tarixdə yeni səhifələr açır. Bu, 15 İyun Qurtuluş Günündən başlanmış tarixdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*